# Azərbaycan mediası qlobal məkanda haqqın səsini ucaldır

**XXI əsr bəşəriyyət tarixində yeni mərhələnin - informasiya dövrünün başlanğıcıdır. Bu dövrdə informasiyanın sürətli ötürülməsi, rəqəmsallaşma, kütləvi kommunikasiya vasitələrinin inkişafı və qlobal şəbəkələrin yaranması ictimai-siyasi münasibətlərdə, dövlət idarəetməsində və təhlükəsizlik arxitekturasında köklü dəyişikliklərə yol açıb, ictimai rəyin formalaşmasında, milli şüurun təşəkkülündə və strateji üstünlüyün təmin olunmasında mühüm ideoloji platformaya çevrilib.**

Müasir dövrdə informasiya müharibəsi real münaqişələrin gedişatına təsir göstərən əsas vasitələrdən biridir. Əgər hərb meydanında döyüşənlərin silahı tanklar, toplar, tüfənglərdirsə , informasiya cəbhəsində faktlar, həqiqətlər və strateji kommunikasiya qurmaq bacarığı savaşır.

Müasir media cəmiyyətin müxtəlif təbəqələrini əlaqələndirən, fərqli mövqelərin fikir uzlaşmasını təmin edir və demokratik diskursa zəmin yaradır. Lakin medianın gücü artdıqca, onun dezinformasiya, manipulyasiya və ideoloji müdaxilə vasitəsinə çevrilmə riski də artır.

**(davamı 6-cı səhifədə)**



## AZƏRBAYCANIN ÇİNİN QLOBAL SİVİLİZASİYA TƏŞƏBBÜSÜNDƏ STRATEJİ ROLU

# Azərbaycan mediası qlobal məkanda haqqın səsini ucaldır





(əvvəli 1-ci səhifədə)

"Fake news", sosial şəbəkələrdə rəqəmsal casusluq və hibrid təbliğat bu reallığın təzahürləridir. Hibrid təbliğat manipulyativ kontent, saxta xəbərlər, sosial media kampaniyaları və texnoloji vasitələrdən (botlar, troll şəbəkələri, süni intellekt alqoritmləri və s.) istifadə edərək hədəfə təsir göstərmək məqsədi daşıyan çoxşaxəli və kompleks informasiya müharibəsidir. Belə hallara qarşı tədbirli davranmaq üçün reallıqlardan xəbərdar olmaq mütləqdir.

Azərbaycan mediası XXI əsrin mürəkkəb çağırışlarına çevik və mütəşəkkil şəkildə reaksiya verən mühüm milli institut kimi formalaşmaqdadır. Xüsusilə son illərdə ölkədə media islahatları, rəqəmsallaşma, informasiya texnologiyalarının tətbiqi, dövlət-mətbuat münasibətləri və milli maraqların informasiya müstəvisində müdafiəsi sahəsində mühüm addımlar atılmışdır. Dövlətin siyasi və hərbi strategiyasını cəmiyyətə çatdırmaq, vətəndaş həmrəyliyini qorumaq və dünya miqyasında informasiya üstünlüyü qazanmaqda medianın rolu danılmazdır.

Hazırda ölkədə jurnalistikanın peşəkarlıq səviyyəsi yüksəlir, informasiya sahəsində tənzimləyici və təşviqedici sturukturlar yaradılır. Medianın İnkişafı Agentliyi, yeni media qanunvericiliyi, dövləti və özəl sektorun maliyyə və texnoloji dəstəyi nəticəsində müxtəlif media layihələri, beynəlxalq əməkdaşlıqlar və təlim proqramları gerçəkləşir. Eyni zamanda sosial media platformalarının fəallaşması və gənc nəsil arasında informasiya istehlakının transformasiyası nəticəsində media mühitində yeni dinamika yaranıb. İnformasiya istehsalçısı ilə istehlakçısı arasındakı sərhəd aradan qalxıb və bu da medianın məsuliyyət yükünü daha da artırıb. Əvvəllər informasiya yalnız peşəkar jurnalistlər, redaktorlar, media qurumları tərəfindən hazırlanır və geniş ictimaiyyətə təqdim olunurdu. Yəni informasiya istehsalçısı yalnız media idi. İctimaiyyət isə bu məlumatları qəbul edən, yəni istehlakçı rolunda çıxış edirdi. Amma rəqəmsal dövr və sosial media platformaları bu ənənəvi modeli dəyişdi. İndi hər kəs sosial şəbəkələr vasitəsilə informasiya yaya bilər. Demək, Azərbaycan mediası qarşısında hələ də bir sıra sistemli çağırışlar dayanır. Məlumat təhlükəsizliyi və rəqəmsal suverenlik, kiberhücumlara qarşı dayanıqlılıq, peşə etikası və jurnalist məsuliyyəti, informasiya məkanında balanslı və obyektiv yanaşma, qlobal mediada Azərbaycanın mövqeyinin daha güclü təqdim olunması əsas şərtlərdir. Bu çağırışlara cavab yalnız texnoloji deyil, həm də ideoloji və institusional yanaşmaların gücləndirilməsi, jurnalistikanın kritik təfəkkürə və sosial məsuliyyətə əsaslanan yeni model üzrə inkişaf etdirilməsi ilə mümkündür.

İyulun 19-21-də Xankəndində keçirilən və bütün dünyada rezonas doğuran III Şuşa Qlobal Media Forumu bir daha sübut etdi ki, müasir texnologiyalarla inteqrasiya olunan, peşəkar kadr potensialı ilə möhkəmlənən və milli ideologiya ilə silahlanan Azərbaycan mediası gələcəkdə informasiya müharibəsinin daha mürəkkəb fazalarında da öz sözünü deməyə və hər zaman qalib gəlməyə qadirdir. 52 ölkədən 140 nümayəndənin, 30-a yaxın nüfuzlu informasiya agentliyi və 80 media qurumunun təmsilçisinin iştirakı ilə gerçəkləşən tədbir çağımızın informasiya və texnologiya dinamikasını əhatə edən strateji müzakirələr üçün unikal platforma oldu. Forumun builki əsas mövzusu rəqəmsal transformasiyalar dövründə medianın dayanıqlılığı, süni intellektin informasiya axınına təsiri və qlobal media mühitinin davamlılığı kimi dərin və çoxşaxəli məsələlərə həsr olunmuşdu. Aparılan panel müzakirələr və fikir mübadilələri, müstəqil jurnalistikanın gücləndirilməsi, sülh və qlobal anlaşmanın təşviqi, mədəni müxtəliflik və ictimai etimadın qorunması istiqamətində də strateji yanaşmalar ortaya qoydu. Forumda Prezident




İlham Əliyev bildirdi: "Azərbaycana qarşı əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib. Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda, lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur. Mən bu tezisə şərh vermək istəmirəm. Amma fakt odur ki, bu gün Azərbaycan mediasını bir çox ölkələrdə müxtəlif səviyyələrdə oxuyurlar, mediada gedən yazıları, məqalələri təhlil edirlər".

Azərbaycan mediası dövlətin maraqlarını hər sahədə - siyasi, iqtisadi, diplomatik, hərbi və mədəni sahələrdə qoruyur. Bu, xüsusilə İkinci Qarabağ müharibəsi zamanı təsdiqləndi. Hərbi əməliyyatlarla paralel şəkildə gedən informasiya müharibəsində Azərbaycan media resursları düşmən təbliğatına qarşı effektiv müqavimət cəbhəsi yaratdı. Yalnız daxili auditoriyaya deyil, beynəlxalq ictimaiyyətə ünvanlanan məntiqli, əsaslı, real faktlara söykənən informasiyalar vasitəsilə ölkənin haqq səsi qlobal informasiya məkanında daha gur eşidildi. Məsələn, informasiya müharibəsində Azərbaycanın media platformaları, sosial media kanalları effektiv şəkildə Ermənistanın və onun havadarlarının yalanlarına, təxribatlarına qarşı faktlarla, canlı xəbərlərlə, analitik materiallarla çıxış etdi. Xarici dillərdə yayılan "Azərbaycan həqiqətləri" adlı onlayn nəşrlər, sosial şəbəkələrdə aktiv kampaniyalar xaricdə də geniş oxundu, izlənildi. Ali Baş Komandan İlham Əliyevin "ən yaxşı müdafiə hücumdur" tezisinə işarə etdiyi kimi, milli mətbuatımız da beynəlxalq miqyasda Azərbaycanın haqq işini təqdim edən, işğalın nəticələrini, Ermənistanın törətdiyi hərbi cinayətləri əks etdirən çoxsaylı sənədli filmlər, reportajlar, analitik yazılar yayımlayaraq təxribatçılara qarşı hücum etdi və hər iki cəbhədə qalib oldu. Bu da mediamızın cəmiyyət və beynəlxalq ictimaiyyət qarşısında nüfuzunu yüksəltdi. Faktlar əsasında ifşa mexanizmini gücləndirildi. Bu gün xarici media orqanlarının Azərbaycanda yaradılan şəraitdən, media azadlığı sahəsində irəliləyişlərdən xəbər verməsi, Prezident İlham Əliyevin arqumentlərinin təsdiqidir. Dövlət başçısı "medianı nüfuzlu edən məhz peşəkar, vicdanlı, yüksək etik dəyərlərə sadiq jurnalistlər ölkəmizin informasiya məkanının dayağı, onun etibarlılıq və nüfuz mənbəyidir. Bu nüfuzun formalaşmasında dövlətin media sahəsinə göstərdiyi dəstək və qayğı mühüm rol oynayır.

Azərbaycan dövləti medianın inkişafı üçün sistemli siyasət yürüdür. Media qurumlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə müxtəlif proqramlar həyata keçirilir. Medianın müasir standartlara uyğun qurulması, elektron və rəqəmsal media sahəsində innovasiyaların tətbiqi bu sahəyə diqqətin bariz nümunəsidir. Dövlət dəstəyi ilə fəaliyyət göstərən media tədris mərkəzləri gənc kadrların hazırlanmasında əvəzsiz rol oynayır. Eyni zamanda, Dövlət başçısının dediyi kimi, medianın əsas qaynağı olan əməkdaşların motivasiyanın artırılması üçün də tədbirlər görülür. Onların sosial müdafiəsi, peşəkar inkişaf imkanlarının genişləndirilməsi medianın həm keyfiyyət, həm də səmərəlilik baxımından yüksəlməsinə zəmin yaradır.

Dövlətin media sahəsinə göstərdiyi davamlı qayğı və dəstək peşəkar əməkdaşların səyləri ilə birlikdə Azərbaycanın informasiya məkanını gücləndirir. Bu isə medianın nüfuzunun yüksəlməsinə, ictimaiyyətlə inamlı əlaqələrin qurulmasına xidmət edir. Nəticədə, Azərbaycan mediası həm daxildə, həm də beynəlxalq səviyyədə etibarlı və təsirli qüvvəyə çevrilir.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**